**Budapeştdə Türk Dövlətləri Təşkilatının Qeyri-rəsmi Zirvəsi keçirilib**

21 may 2025-ci il tarixində Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət və Hökumət Başçılarının Qeyri-rəsmi Zirvəsi keçirilmişdir. Zirvə görüşünə Macarıstanın Baş naziri cənab Viktor Orbanın ev sahibliyi etmişdir. Görüşdə Azərbaycan Prezidenti cənab İlham Əliyev, Qazaxıstan Prezidenti cənab Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti cənab Sadir Japarov, Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyev və TDT-nin baş katibi cənab Kubanıçbek Ömüralıyev iştirak etmişlər.

"Şərqlə Qərbin görüş nöqtəsi" mövzusu altında təşkil olunan Qeyri-rəsmi Zirvə görüşü dövlət başçılarına prioritet sahələr üzrə əməkdaşlığı gücləndirmək, ümumi regional və qlobal problemlər ətrafında fikir mübadiləsi aparmaq üçün mühüm imkan yaradıb.

**Dövlət Başçıları Şurası tərəfindən aşağıdakı sənədlər imzalanıb və qəbul edilib:**
- Türk Dövlətləri Təşkilatının Qeyri-rəsmi Zirvə Toplantısının Budapeşt Bəyannaməsi;
- "Özbəkistan Respublikasının Türk Mədəniyyəti və İrsi Fondunda iştirakı" haqqında qərar;
- TDT Baş Katibinin səlahiyyət müddətinin uzadılması haqqında qərar;
- Dövlət Başçıları Şurasının Əfqanıstan üzrə Bəyanatı.

**Xarici İşlər Nazirləri Şurası tərəfindən aşağıdakı sənədlər imzalanıb və qəbul edilib:**
- Türk Dövlətləri Təşkilatının Macarıstan Nümayəndəliyinin icraçı direktorunun təyin edilməsi haqqında qərar;
- "Şimali Kipr Türk Respublikasına Türk Akademiyasında müşahidəçi statusunun verilməsi haqqında" qərar.

Zirvə toplantısı çərçivəsində həmçinin mükafatlandırma mərasimi keçirilib və Nobel mükafatlı türk molekulyar bioloq Prof.Dr.Aziz Sancar Türk Dövlətləri Təşkilatı tərəfindən "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" "Ali Şir Nevai Beynəlxalq Mükafatı" ilə təltif edilib.

Zirvə çərçivəsində Macarıstan Dövlət Operasında dövlət və hökumət başçılarının şərəfinə mədəni proqram da təşkil olunub.

Budapeşt Qeyri-rəsmi Sammiti TDT-nin Müşahidəçi üzvü olan dövlətin ərazisində keçirilən ilk zirvədir.

Zirvədən sonra TDT-nin baş katibi səfir Kubanıçbek Ömüralıyev və Macarıstanın xarici işlər və xarici ticarət naziri Peter Siyarto birgə mətbuat konfransı keçirərək zirvənin yekunları və TDT-nin dövlət başçılarının qəbul etdiyi qərarlar barədə geniş məlumat veriblər.